AZƏRBAYCAN

21 dekabr 2023-cü il

# Sumqayıtlılar daha bir tədbirlə Ulu Öndəri anıblar

**Sumqayıtda Heydər Əliyev Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Öncə tədbir iştirakçıları Heydər Əliyevin abidəsini ziyarət ediblər.**



Ulu Öndərə həsr olunmuş filmin nümayişindən sonra Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov çıxış edərək bildirib ki, çoxəsrlik tariximizin ən böyük nailiyyətləri Heydər Əliyevin adı ilə bağlıdır: "Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzedilməz xidmətləri onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Ümummilli Liderin həm SSRİ dövründə, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dönəmdə görülən işlər respublikamızın qüdrətinin artmasına, tarixi nailiyyətlər qazanmasına səbəb olub".

Z.Fərəcov vurğulayıb ki, Heydər Əliyevin xüsusi diqqəti və qayğısı ilə 70-80-ci illərdə Sumqayıt dinamik inkişaf edib: "Sumqayıtlılar Ulu Öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss ediblər. Şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin səviyyəsinin yüksəlməsində Ulu Öndərin misilsiz xidmətləri olub. Dəfələrlə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi düşüb".

Tədbirdə Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***